ədalət.-2016.-14 dekabr.-S.4.



# ŞƏRƏF GƏTİRƏN SƏNƏTKAR

**Keçən əsrin 60-cı illərində Gəncə Dövlət Dram teatrından orda çalışan məşhur sənətkarlarla yanaşı gənc bir qızın adı mətbuatda tez-tez çəkilərdi. Bu qızın hələ kamil teatr təhsili görmədən 17 yaşında C.Cabbarlının "Solğun çiçəklər" əsərində Sara rolunu müvəffəqiyyətlə oynadığı çoxlarının yadında qalmışdı. Bu gənc qızın adı Zemfira Əliyeva idi. 1971-ci ilə qədər Gəncə Dövlət Dram teatrında oynadığı Evripidin "Medeya"dakı, Ə.Əsgərovun "Qız atası"ndakı, C.Cabbarlının "Almaz" əsərindəki baş rolları teatr sevənlərə xoş təsir bağışlamışdı.**

1971-ci ildə Z.Əliyeva Gəncədən Naxçıvana köçür, orda ailə qurur və 1972-ci ildən Naxçıvan Dövlət Musiqili Dram teatrının yaradıcı heyətinə daxil olur. O zaman bu teatrda çox tanınmış qadın sənətkarlar çalışırdı. Xədicə xanım Qazıyeva, Füruzə Əlixanova, Zəroş Həmzəyeva, Sofya Hüseynova, Roza Cəlilova və başqaları. Bu təcrübəli sənətkarlar o zaman təsəvvür edə bilməzdi ki, onların cərgəsinə teatra şərəf gətirən bir istedad daxil olmuşdur. Təvazökarlığı, sadəliyi, insanpərvərliyi ilə kollektivin hörmətini qazanan Zemfira az keçmədi kollektivin aparıcı sənətkarlarından birinə çevrildi.

1970-ci illərdə Naxçıvan teatrı Bakıya qastrol səfərinə gəlmişdi. Kollektivlə yaxından tanış olmaq üçün onların bütün tamaşalarında oldum. Müvəffəqiyyətlə başa vurulan qastrol səfərinin sonunda tamaşaları müzakirə üçün geniş bir müzakirə təşkil edildi, gətirilən tamaşalar professional baxımdan qiymətləndirildi. Teatrın baş rejissoru İbrahim Həmzəyev hələ o zaman sağ idi və onun vasitəsi ilə teatrda çalışan bir çox sənətkarlarla tanış oldum. Onların arasında ürəyimə çox yatan öz ağlı və təmkinliyi ilə diqqəti çəkən aktyor və rejissor Vaqif Əsədov da var idi. Yaxın söhbətlərimizdən məlum oldu ki, Vaqif və Zemfira xanım evlənmişlər, ailə qurmuşlar.

O illər mədəniyyət nazirliyi məni rayon teatrlarına yeni hazırlanmış tamaşalara baxıb qiymət vermək üçün ezamiyyətə göndərirdi. Növbəti gedişlərimin birində, Naxçıvanda teatrın yeni tamaşası ilə bərabər başqa tamaşalarında da iştirak etdim. O zaman Naxçıvan teatrı əsasən müasir həyatdan, ciddi aktual problemlərdən söz açan əsərlər hazırlayırdı. Hiss olunurdu ki, teatr həmişə dövrün hadisələrinin fövqündə dayanır. O vaxt baxdığım tamaşaların içində Sabit Rəhmanın "Toy" komediyası da var idi. Zemfira Əliyeva bu tamaşada Ziynət rolunu yaradırdı. S.Rəhmanın əsərində Ziynət sərt bir komsomolçu qız kolxoz sədri Kərəmovu çəkinmədən tənqid edirdi. Ziynət Zemfiranın ifasında çox lirik, təmkinli, lakin ardıcıl olaraq kolxozun inkişafı üçün çalışan bir gənc idi. Onun Kərəmovla, dəmirçi Molla Musa ilə dialoqlarında böyük bir mədəniyyət hiss olunurdu. Kərəmov Ziynəti açıq-aydın təhqiramiz sözlərlə susdurmağa çalışsa da Ziynət əsas fikrini dönə-dönə kolxozun inkişafına tərəf yönəldirdi. Zemfiranın istedadı bu rolda parlaq bir şəkildə açıldı. O, Kərəmovla səsli-küylü mübarizə aparmırdı. Onun bütün fəaliyyəti yalnız Kərəmovun qüsurlarını düzəltməyə yönəlmişdir. Zemfiranın ifasında Ziynət qətiyyətli və çox gözəl görünürdü. Aktrisa bu obrazı oz imkanları zirvəsinə layiqincə qaldırmışdır. O öz danışığında obrazı nə qədər lirik göstərsə də qətiyyətini barışmaz bir tərzdə də ifadə edə bilirdi. Ona aşiq olmuş dəmirçi Molla Musaya Zemfira-Ziynət xüsusi həssaslıqla yanaşırdı.

Bu tamaşada Surxay rolunu isə Vaqif Əsədov ifa edirdi. Onların münasibətində tam bir kamillik, təmiz məhəbbət hiss olunurdu.

Naxçıvan Dövlət Musiqili Dram teatrı tez-tez respublikamızın başqa rayonlarına qastrola gedərdi. Bu səfərlərin birində mən teatrla rayonlarımızın birində görüşdüm. B.Vahabzadənin "Yağışdan sonra" əsərini oynayırdılar. Əsər ailə, əxlaq, məhəbbət və ləyaqət motivləri əsasında qurulmuşdu. Tamaşada əsl məhəbbətdən, lirik duyğulardan, ictimai-siyasi fəlsəfi dəyərlərdən söhbət açılırdı. Başqa səhnədə oynamalarına baxmayaraq tamaşada bir səliqəlik,təmizlik, gözəl mizanlar, həyəcanlandırıcı münasibət tapıntıları məni çox sevindirdi. Hiss olunurdu ki, teatr B.Vahabzadəyə böyük hörmətlə yanaşmış, onun adına layiq tamaşa yaratmışdır. İbrahım Həmzəyev bu tamaşada Qəşəm bəy rolunu oynayırdı. Onun sanballı davranışı, dərin mənalı sözləri, hadisələrə fərqli münasibəti indiyə qədər yadımdan çıxmamışdır. Tamaşadakı Reyhan surətini ifa edən Zemfira Əliyevanın təbii və cöşqun ifası isə məni heyran etdi. Reyhanın psixoloji aləmi, bacısının xain eşq macəralarını duyandan sonra çılğın bir nifrətlə onu tənqid etdiyi hələ də gözümün qabağındadır. Reyhan üçün həyatda eşq və sədaqət sözlərinin dəyişməz, təmiz, saf bir mənası vardır. Bu mənada sevdiyi adamın daima keşiyində durmaq, ürəyə dəyən heç bir yalnız hərəkət etməmək deməki idi. Buna laqeyid yanaşılarsa ürəyi, insanın bütün varlığını açıq-aydın tapdamaq deməkdir. Reyhan bacısının halına acımaqla bərabər onu incitmir, onu səmimi



bir şəkildə uşaqlarına və ailəsinə bağlamaq istəyir. Reyhanın bütün hərəkətləri, dialoqları Zemfira tərəfindən çox parlaq bir şəkildə nümayiş etdirilirdi. Bu tamaşada Zəroş xanım da iştirak edirdi .Həmişə olduğu kimi Reyhanla dialoqları yüksək proffessional şəkildə ifa edilirdi.

1982-ci ildə Naxçıvanda Hüseyn Cavid adına poeziya teatrının açılışına hazırlıq gedirdi. Mədəniyyət Nazirliyi məni həmən tamaşanın hazırlığına nəzarət və kömək üçün üç ayliq Naxçıvana ezamiyyətə göndərdi.

H.Cavidin poeziyası və pyesləri əsasında Vaqif Əsədov "Mənim tanrım gözəllikdir, eşqidir" poetik tamaşa hazırlayırdı.Bu quruluşda Z.Əliyeva Sevda rolunu oynayırdı. Tamaşaya çox ciddi münasibət bəslənirdi. Söhbət gedirdi ki, poeziya teatrının açılışına Heydər Əliyev də gələcəkdir. Lakin hadisələr elə inkişaf etdi ki, H.Əliyev Moskvaya Sovet rəhbərliyinin ən böyük vəzifələrindən birinə getdiyinə görə teatrın açılışına İsa Məmmədov gəldi. O vaxtdan ta 88-ci ilə qədər Zemfira xanımın yaradıcılığını izləyə bilmədim. Həmən il Zemfira xanımı Azərbaycan Dövlət Akademik Dram teatrına dəvət etdilər. Bu dəvət həm tamaşaçılar, həm teatrın kollektivi tərəfindən müsbət qarşılandı. Zemfira xanım Naxçıvan Muxtar respublikasının Ali Sovetinin deputatı, Azərbaycan respublikasının xalq artisti və nəhayət respublikamızın teatrında ilk dəfə olaraq yunan dramaturgiyasından iki nəhəng rolun ifaçısı kimi tanınırdı. 1970-ci ildə Gəncə Dram teatrında Evripidin "Medeya" faciəsində Medeyanı, az sonra Naxçıvan Dövlət Musiqili Dram teatrında rejissor V.Əsədovun quruluşunda Elektra rolunu müvəffəqiyyətlə ifa etmişdir. "Elektra" tamaşası Moskvadan mərkəzi televiziyadan 1987-ci ildə bütün SSRİyə nümayiş etdirildi. Dram teatrında Zemfira xanımın bu fəaliyyətlərini bilirdilər və ona müvafiq də hörmət edirdilər.

1989-cu ildə mən Akademik Milli Dram teatrında C.Əlibəyovun "Gülüstanda qətl"əsərini hazırlamalı oldum. Tamaşada Bəyim nənə obrazını Zemfira Əliyeva da ifa edirdi. Onun iştirakı ilə Azərbaycan rayonlarına bu tamaşa ilə qastrollarımız mənim sənət aləmimdə unudulmaz günlər kimi qalmışdır.

Zemfira Əliyeva 1995-ci ilə qədər Dram teatrında işlədi və əcəl atı elə həmən il onu aramızdan apardı.

**Bu yaxınlarda bir sənət dostumun məzarını ziyarət etmək üçün qəbiristanlığa getmişdim. Orda Badamdar qəsəbəsinə gedən tərəfdən qəbrstanlığa bir yol ayrılırdı. Ordan Nəşriyyat binasına qədər uzun bir yol keçir. Bu yollan kedəndə sağda çox səliqə ilə götürülmüş Zemfira xanımın məzarını gördüm. Onun öz evində Vaqif məni qonaq çağıranda mənə göstərdikləri hörmətin hamısı bir anlıq gözümün qarşısından keçdi. Ürəyimdə Zemfiranın sevimli əri Vaqifə bu layiqli abidə üçün təşəkkür elədim. Bu ailə həm Naxçıvan teatrına, həm də Azərbaycan Dram teatrına, Vaqifin indi işlədiyi Gənc Tamaşaçılar teatrına sənət baxımından güzəşsiz xidmət etmişlər. Evini, ailəsini, uşaqlarını, nəvəsini ürəkdən sevən Vaqif xidmətlərini bu gün də davam etdirir, bununla da Azərbaycan respublikasının xalq artisti Zemfira Əliyevanın ruhunu şad edir. Çünki Zemfira sənətkar kimi həqiqətən işlədiyi teatrlara şərəf gətirirdi.**

**AĞAKİŞİ KAZIMOV,**
**xalq artisti, professor**